**“Respublika”**.-2009.-5 iyun.-№120.-S.3

# Müstəqil məhkəmə hakimiyyətinin yaradıcısı

***Xalqlarının tarixində müstəsna rol oynamış fenomen şəxsiyyətlər böyük müdrikliklə irəli sürdükləri ideyalarla insanları konkret məqsədlər ətrafında səfərbər etmək, milli birliyi qorumaq və möhkəmləndirmək imkanları qazanmışlar. Belə seçilmiş liderlər siyasi fəaliyyəti ilk növbədə cəmiyyətin ayrı-ayrı təbəqələrini inandıraraq, nəcib amallar naminə bir araya gətirmək, total ictimai şüurda pozitiv dönüş yaratmaq vasitəsi kimi dəyərləndirmişlər. Belə fenomen liderlərdən biri olaraq tarixə öz möhürünü vurmuş ulu öndər Heydər Əliyevin də böyük siyasətdə və dövlət idarəçiliyində qazandığı nailiyyətlər, ilk növbədə, xalqın səmimi dəstəyinə, ictimai inam amilinə söykənmiş, böyük strateqin mənəvi bütövlüyə, birliyə və həmrəyliyə xidmət edən siyasətinin məntiqi nəticəsi olmuşdur.***

Böyük strateq qarşıya qoyduğu ali məqsədlərə doğru irəliləyərkən təkcə daxili inamına, iti fəhminə, yüksək intellekti və parlaq zəkasına deyil, həm də icti mai etimada əsaslanmış, ən böyük dəstəyi xalqdan almış, cəmiyyəti öz ardınca apara bilmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər xalqın azadlıq, müstəqillik arzularının gerçəkləşməsinə real hüquqi, siyasi və iqtisadi əsasların yaradılması, bu möhkəm baza üzərində qazanılmış dövlət müstəqilliyinin möhkəmləndirilməsi, xalqın təbii konstitusion hüquqlarına sahib çıxması, milli-mənəvi yüksəlişə nail olması, fərdin özünü vətəndaş kimi dərk etməsi kimi iftixar doğuran tarixi prosesi əhatələyir. Ulu öndər ictimai fikri hər zaman dövrün keyfiyyətcə yeni və pozitiv dəyişikliklərinə hazırlamaq, yaranmış tarixi şəraitə uyğun strateji qərarlar qəbul etməklə yanaşı, fəaliyyətində daim milli maraq və mənafeləri önə çəkmiş, uzaq hədəflərə hesablanmış inkişaf strategiyasını həyata keçirmişdir.

Tarixdən yaxşı məlumdur ki, liderlik keyfiyyətlərinə malik böyük şəxsiyyətlər sosial-iqtisadi, ictimai-siyasi və mənəvi-mədəni kataklizmlər dövründə xalqa düzgün yolu göstərən mayak və xilaskar missiyasında çıxış etmişlər. Heydər Əliyev də insanları öz ideya və baxışları ətrafında birləşdirmək, onların iradələrinə, qərarlarına pozitiv təsir göstərmək imkanında olmuş, məhz bu xüsusiyyətləri sayəsində idarəçilikdə böyük uğurlara imza atmış, cəmiyyətin əsas qüvvələrini arxasınca apara bilmişdir. Heydər Əliyevin xarizması, özünəməxsus liderlik keyfiyyətləri, siyasi prosesləri yönəltmək məharəti, cəmiyyətin maraq və mənafelərini ümumi bir nöqtədə birləşdirmək bacarığı Azərbaycan xalqının bu dahi şəxsiyyətə sonsuz etimadının əsas səbəblərindən biridir.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi və möhkəmləndirilməsi istiqamətində cərəyan edən proseslərin önündə getdiyini birmənalı olaraq təsdiqləyən faktlar kifayət qədərdir. Tarixi təcrübə göstərir ki, müstəqilliyin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində 1993-cü ilin ortalarınadək formal səciyyə daşımışdır. Ulu öndər 1993-cü ildə xalqın çağırışına cavab verərək, yenidən Azərbaycanın idarəçilik sükanı arxasına keçmiş, qısa müddətdə xalqı üzləşdiyi faciələrdən hifz edərək milli dövlətçilik ənənələrini qorumuşdur.

Ümummilli lider Heydər Əliyev xalqın tələbi və istəyi ilə iyunun 9-da Bakıya qayıdanda respublikada silahlı vətəndaş qarşıdurması zəminində cərəyan edən proseslərin nə ilə nəticələnəcəyi çoxlarına bəlli deyildi. Tamamilə iflic vəziyyətinə düşən, kiçik silahlı qruplaşmaya belə müqavimət qabiliyyətini itirən, xalqın dəstəyindən məhrum olan, mövcudluğu for mal mahiyyət kəsb edən bir hakimiyyətin sükanı arxasına keçmək, yaranmış acınacaqlı vəziyyətin aradan qaldırılması istiqamətində addımlar atmaq son dərəcə çətin, hətta mümkünsüz görünürdü. Azərbaycanda hakimiyyətə qayıdan ulu öndər özünün müdrik və uzaqgörən addımları, ən müxtəlif maraqları bir nöqtəyə gətirmək bacarığı sayəsində siyasi böhranı aradan qaldırmış, qanunsuz silahlı qüvvələri zərərsizləşdirmiş, xaos və anarxiya mühitinin, özbaşınalığın aradan qaldırılması, ictimai-siyasi sabitliyin, qanunçuluğun qorunub saxlanılması istiqamətində prinsipial addımlar atmışdır. Beləliklə, ulu öndər xalqı vətəndaş müharibəsi, milli müstəqilliyin itirilməsi təhlükəsindən qurtarmış, çağdaş tariximizə dövlətçiliyimizin xilaskarı və qurucusu kimi daxil olmuşdur.

Xalqına, dövlətinə güvənən Heydər Əliyev dühası 1994-1995 - ci illərdə bəzi daxili qüvvələrin dövlət çevrilişi, qiyam cəhdlərinin qarşısını qətiyyətlə almış, beləliklə Azərbaycanda silahlı yolla hakimiyyəti ələ keçirmək "ənənəsinə" son qoymuşdur. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri zamanı ümummilli liderin bir çağırışı ilə çoxsaylı həmvətənimizin Prezident Aparatının qarşısına toplaşması, ona dəstək verməsi çağdaş tariximizə milli birlik və həmrəyliyimizin ən ali təcəssümü kimi yadda qalmışdır.

Siyasi sabitliyin təminatı Azərbaycanda ardıcıl və sistemli ola raq hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratmışdır. Bu baxımdan əminliklə deyə bilərik ki, Azərbaycan xalqının demokratik-hüquqi dövlətdə yaşamaq idealının real və dayanıqlı əsaslar üzərində gerçəkləşərək əbədiləşməsi də çağdaş tariximizin unudulmaz dühası—ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin idarəçiliyinin ikinci mərhələsində də qanunçuluğa, hüquq qaydalarına, ədalətə bağlı olması onun zəngin mənəviyyatından, demokratizmindən rişələnmişdir. Heydər Əliyev gücün siyasətinə qarşı qanunun gücünü qoyaraq "haqlı həmişə güclüdür" düsturundan çıxış etmiş, hakimiyyətin daim hər bir fərdin maraq və mənafeyini uca tutmasına çalışmışdır.

Ulu öndərin müəllifliyi ilə hazırlanmış, 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul

edilmiş ilk milli Konstitusiya Azərbaycanın unitar, demokratik və dünyəvi dövlət imicini təsbit etmiş, vətəndaş cəmiyyətinə, insan hüquq və azadlıqlarının prioritetliyinə əsaslanan islahatların əsasına çevrilmişdir. Konstitusiyanın 151-ci maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, beynəlxalq müqavilələr tətbiq edilir. Bu maddə Azərbaycan Konstitusiyasının liberallığını və demokratikliyini bir daha sübuta yetirməklə yanaşı, həm də ölkədə milli qanunvericiliyin Avropa standartlarına uyğunlaşdırılmasına yaxşı imkanlar açmışdır. Əsas Qanunda əksini tapmış insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Respublikamız ötən illərdə in san hüquq və azadlıqları ilə bağlı 50-dən artıq konvensiyaya və beynəlxalq aktlara qoşulmuşdur. Bu sırada 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlara dair Beynəlxalq Paktı, 1966-cı il tarixli İqtisadi, Sosial və Mədəni Hüquqlara dair Beynəlxalq Paktı, BMT-nin 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasını, BMT-nin Qadınların Siyasi Hüquqlarına dair 1952-ci il tarixli Konvensiyasını, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunmasına dair 1979-cu il Konvensiyasını, İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv olunmasına dair 1965-ci il Beynəlxalq Konvensiyanı xüsusi vurğulamaq lazımdır.

Azərbaycan Prezidenti yanında Əfv Komissiyasının yaradılması və Əfvetmə İnstitutunun bərpası da ulu öndər Heydər Əliyevin çox böyük mənəviyyat sahibi olduğunu, şəxsiyyətcə dahiliyini təsdiqləyir. Bu humanizmin nəticəsidir ki, son illər respublikamızda əfv fərmanlarının imzalanması, məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir. Heydər Əliyevin 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərarı verən ilk ölkə olmuşdur. Müqayisə üçün bildirək ki, o vaxt hətta Avropa Şurasının üzvü olan bir sıra dövlətlər analoji addımı hələ atmamışdılar. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Av ropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir.

1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyən edilmişdir. 1998-ci il 18 iyun tarixdə isə Azərbaycan Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Bu memoranduma əsasən BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərindən biri də məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsidir. Böyük öndərin 1998-ci il dekabrın 1-də imzaladığı "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsi barədə fərmanı respublikamızda yeni məhkəmə sisteminin formalaşmasına mühüm töhfə olmuşdur. Qanun ədalət mühakiməsinin həyata keçirilməsi prinsiplərinin müasirləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması baxımından olduqca mühüm əhəmiyyət daşımışdır. Məhkəmə fəaliyyətinin hüquqi əsaslarını və ədalət mühakiməsinin daha səmərəli təşkili qaydalarını özündə ehtiva edən qanunda hakim vəzifəsinə seçkilərlə bağlı bir sıra zəruri tələblər də əksini tapmışdır. "Məhkəmələr və hakimlər haqqında" qanunun qəbulu məhkəmə orqanlarının sovet dövründən miras qalmış köhnə funksiyalardan azad olmasına, onların fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasına, bir sözlə, ədalət məhkəmələrinin cəmiyyətdəki nüfuzunun möhkəmləndirilməsinə xidmət etmişdir.

28 dekabr 2001-ci il tarixdə "Azərbaycan Respublikasının in san hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitu siya qanununun qəbulu da respublikamızda insan hüquq və azadlıqlarının etibarlı təminatına xidmət etmişdir. 2002-ci il iyulun 2-də Azərbaycan Respublikasının ilk ombudsmanı seçilmiş və həmin ilin oktyabr ayından insan hüquqları və azadlıqlarının bərpası istiqamətində fəaliyyətə başlamışdır.

Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində həyata keçirilən hüquqi islahatların və milli qanunveri ciliyin beynəlxalq, Avropa standartlarına uyğunlaşdırılması prosesinin məntiqi davamı kimi 24 dekabr 2002-ci il tarixdə qəbul edilmiş "Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu da tənzim etdiyi məsələlərin dairəsinə görə çox mühüm əhəmiyyət kəsb edir. Bu Qanun Azərbaycanda insan hüquq və azadlıqlarının həyata keçirilməsi vəziyyətini "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına uyğunlaşdırılması məqsədi daşımışdır.

Bu gün qürur hissi ilə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu məhkəmə-hüquq islahatları son 6 ildə onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Şübhəsiz, ictimai münasibətlər qanunlarla tənzimləndiyindən, cəmiyyət həyatındakı mühüm yeniliklər

hüquq sistemində də dəyişikliklər və yeniləşmə tələb edir. Dövlət başçısı peşəkar siyasətçi kimi bu amili ciddiliklə nəzərə alır və sosial-iqtisadi uğurların miqyasına, habelə cəmiyyətin de mokratik şüur səviyyəsinin yüksəlməsinə paralel olaraq qanunların liberallaşdırılmasını, məhkəmələrin və ədliyyə sisteminin fəaliyyətinin müasirləşdirilməsini vacib sayır.

Dövlətimizin başçısının 19 yanvar 2006-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" qanun tətbiq edilmişdir. Bu fərman məhkəmələrin fəaliyyəti ilə bağlı narahatlıq doğuran bəzi məqamların ara dan qaldırılması baxımından əlahiddə əhəmiyyətli sənəd olmaq la, həm də regionların hazırkı so sial-iqtisadi inkişaf tempi ilə şərtlənmişdir. Bölgələrdə yaşayan əhaliyə göstərilən hüquqi yardımın səviyyəsinin yüksəldilməsi, onların hüquq və azadlıqlarının müdafiəsi üçün yeni məhkəmələrin yaradılması, vətəndaşların narazılıqlarına səbəb olan sui-istifadə, süründürməçilik hallarının və digər nöqsanların aradan qaldırılması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması və vətəndaşların məhkəmələrə inamının təmin edilməsi, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiqi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması və digər mühüm məsələlər fərmanın əhatə dairəsinə daxildir.

Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası ötən illər bu fərmandan irəli gələn vəzifələrin icrası üçün geniş tədbirlər planı hazırlayıb həyata keçirmişdir. Bakıda, Gəncədə, Sumqayıtda, Şəkidə və Şirvanda apelyasiya məhkəmələrinin, Naxçıvanda Ağır Cinayətlərə dair İşlər üzrə məhkəmənin, Bakıda 2 saylı Yerli İqtisad Məhkəməsinin, Sumqayıt və Şəki Şəhər Yerli İqtisad məhkəmələrinin yaradılması və artıq fəaliyyətə başlaması fərmandan irəli gələn vəzifələrin reallaşdığını göstərir. Apelyasiya məhkəmələri 4 kollegiyadan-mülki işlər, cinayət və inzibati hüquqpozmalara dair işlər, hərbi məhkəmələrin işləri üzrə və iqtisadi mübahisələrə dair işlər üzrə kollegiyalardan ibarət olmaqla müvafiq ərazi yurisdiksiyası üzrə fəaliyyət göstərirlər.

Aparılan təhlillər göstərmişdir ki, əksər hallarda məhkəmələrdə cinayət işlərinin səthi aparılması, vətəndaşların qanuni hüquq və mənafelərinin tam təmin edilməməsi hakimlərin sayının azlığı, iş yükünün ağırlığı ilə bağlı olmuşdur. Bu baxımdan məhkəmələrdə hakimlərin sayının artırılması istiqamətində atılan addımlar mütərəqqi məhkəmə-hüquq islahatlarının məntiqi davamı kimi dəyərləndirilə bilər. Dövlət başçısının 17 avqust 2006-cı il tarixli fərmanı ilə məhkəmələrdə hakimlərin sayının 153 ştat vahidi artırılması da məhkəmə sistemi nin çevik və işlək fəaliyyətinin təmin olunması məqsədindən irəli gəlmişdir. Fərmanın icrası ilə bağlı Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilən tədbirlər hakim vəzifəsinə seçkilərin tamamilə azad və ədalətli keçirilməsinə, bu məsul vəzifəyə ən la yiqli insanların seçilməsinə xidmət etmişdir.

Cənab İlham Əliyev ədalət mühakiməsinin səmərəliliyinin təmin edilməsi baxımından məhkəmələrin normal iş şəraitinin yaradılmasını da son dərəcə vacib hesab edir. Məhkəmələrin maddi-texniki bazasının gücləndirilməsi, onların yeni bina və inventar ilə təmin olunması istiqamətində həyata keçirilən tədbirlər də məhz bu ali məqsədin gerçəkləşdirilməsinə xidmət edir. Bu günlərdə Ali Məhkəmənin ən müasir tələblərə cavab verən yeni binasının istifadəyə verilməsi də bu diqqət və qayğının bariz təcəssümüdür. Azərbaycan Prezidenti cənab İlham Əliyev həmin binanın açılış mərasimindəki çıxışında hakimlərin fəaliyyəti ilə bağlı tövsiyələrini və arzusunu da ifadə etmişdir: **"Hər yerdə ədalət olmalıdır, ilk növbədə, məhkəmə sistemində. Çünki burada qəbul edilmiş qərarlar insanların taleyinə təsir göstərir. Bir də demək istəyirəm ki, heç bir cinayət cəzasız qalmamalıdır, ancaq günahsız insanlar da cəzalandırılmamalıdır. Ona görə hakimlərin üzərinə çox böyük və şərəfli missiya düşür".**

Bu gün bölgələrdə yerləşən məhkəmələr də dövlətin hərtərəfli diqqət və qayğısı ilə təmin olunmuşlar. Bunun nəticəsi kimi Göyçay Rayon Məhkəməsi də yüksək səviyyədə təmir olunmuş, onun maddi-texniki bazası möhkəmləndirilmiş, infrastrukturu müasirləşdirilmişdir. Məhkəmə ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin edilmiş, onun müasir tələblərə cavab verən vebsaytı fəaliyyətə başlamışdır. Həyata keçirilən tədbirlər rayon məhkəməsinin fəaliyyətində şəffaflığın və səmərəliliyin təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Ümumilikdə, ardıcıl surətdə həyata keçirilən islahatlar göstərir ki, Azərbaycanda qanunun aliliyinin təminatı, məhkəmə hakimiyyətinin dövlət idarəçilik mexanizmində nüfuzlu və müstəqil təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili, cinayət və mülki mühakimədə demokratik prinsiplərin qorunması, peşəkar hakim korpusunun formalaşdırılması, məhkəmələrin fəaliyyətində şəffaflığın təmin edilməsi və digər konseptual məsələlərin həlli xüsusi diqqət mərkəzindədir. inamla həyata keçirilən məhkəmə-hüquq islahatları respublikamızda qanunçuluğun, hüquq qaydalarının daha da möhkəmlənməsinə, habelə Azərbaycanın beynəlxalq arenadakı demokratik imicinin yüksəlməsinə xidmət edir.

Elxan SÜLEYMANOV.